# AZƏRBAYCAN RESPUBLİKASININ MÜSTƏQİLLİYİNİN BƏRPASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Leyla Hüseynova**
*AMEA A.A.Bakıxanov Tarix İnstittutunun*
*"Əliyevşünaslıq" şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d, dos.*
*L_huseyinova@mail.ru*

**Xülasə**

1991-ci ilin siyasi böhranları fonunda Azərbaycan Respublikasnın müstəqilliyin bərpası prosesindən bəhs edilir. Bu proseslər çərçivəsində Ümummilli lider Heydər Əliyevin təəssübkeş yanaşması, Naxçıvan Muxtar Respublikasında bütün Azərbaycan naminə qəbul etdiyi qərarlar təhlil edilib. Azərbaycan Respublikasının dövlət müstəqilliyi yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. 1988-1990-cı illərdə Azərbaycanda başlanmış milli demokratik hərəkat ölkənin müstəqilliyinin bərpasına istiqamətlənmişdi. Avqustun 30-da qəbul edilmiş bəyannamədə respublikanın müstəqilliyinin bərpasında hüquqi əsas kimi Azərbaycan Xalq Cümhuriyyəti hesab edilmiş, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğu əsaslandırılmışdır. Müstəqilliyi tanıyan dövlətlər haqqında da yazılıb: Azərbaycanın dövlət müstəqilliyini birinci olaraq qardaş Türkiyə Cümhuriyyəti tanıdı.

**Açar sözlər:** Heydər Əliyev, müstəqillik, bəyannamə, üçrəngli bayraq, Ali Sovet

**Giriş**: 1991-ci ildə Sovet İttifaqının dağılmasına doğru gedən proseslərdə Azərbaycan xalqının tarixi ənənələrə əsaslanan müstəqillik ümidləri və bu müstəqillik uğrunda mübarizəsi geniş vüsət aldı. Azərbaycan xalqı uzun illər istiqlal ideyasını özündə yaşatmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illər bu ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi xalqın dövlətçilik tarixinə iz qomuşdur.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə [1] bu mübarizənin mühüm nəticəsi hesab edilir. Məhz bu bəyannaməyə müvafiq olaraq Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitutsiya Aktını [2] qəbul etdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsinin növbəti ildönümünü qeyd edərkən bu tarixi hadisəni zəruriləşdirən tarixi xronikaya nəzər salmaq vacibdir.

1989-cu il sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiya DQMV XİK-in ləğvi, Azərbaycan SSR Konstitusiyasına respublikanın sərhədlərinin yalnız ümumxalq referendumu yolu ilə dəyişdirilə bilməsini nəzərdə tutan dəyişikliklər edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul etdi. [5, s.59]

1989-cu ilin dekabrında Naxçıvan MSSR-də sərhəd boyu minlərlə adam toplanmış, çadırlar qurulmuş, tonqallar yandırılmışdı. Dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum [7] göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, cənublu soydaşları ilə əlaqə saxlanmasına imkan yaradılması tələbi irəli sürülmüşdü. Lakin heç bir razılıq əldə edilmədi.

SSRİ hökuməti Azərbaycanda yüksələn xətlə davam edən milli hərəkata divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət qazandıra bilərdi. Buna görə də sərhədçilərə adamlara müqavimət göstərməmək əmri verilmişdi.

Bu hərəkatı yatırmaq məqsədilə 1990-cı il yanvarın 20-də sovet qoşunları Azərbaycana yeridildi. Qanlı Yanvar hadisələrindən sonra xalqı ilə bir olmaq, onun azadlıq və suverenlik arzularının gerçəkləşməsində iştirak etmək istəyən Heydər Əliyev Moskvadan Azərbaycana qayıtdı. O, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçildi.

Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasındakı çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etdi, böhranın, habelə Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar Ermənistan SSR-ə qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etdi. Onun çağırışını hakim dairələr diqqətə almasalar da, xalq ruh yüksəkliyi ilə qarşıladı. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. Bu dövrdə sözün həqiqi mənasında Naxçıvan parlamenti Azərbaycanın ali qanunverici orqanı üçün nümunə idi. [10]

Respublika rəhbərliyi bu çağırışları eşitmədi və 1991-ci ilin 19-21 avqust hadisələrində tamamilə səbatsız mövqe tutdu, irticaçı "QKÇP" (Государственный Комитет по Чрезвычайному Положению) qiyamını dəstəklədi. "QKÇP"nin iflasından sonra əksər müttəfiq respublikalar dövlət müstəqilliyini rəsmən bəyan edərək müvafiq konstitusion aktlar qəbul etdilər. Dünya birliyi SSRİ-nin yerində meydana gələn yeni müstəqil dövlətləri öz sıralarına qatmağa başlamışdı. Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyi siyasi durğunluğa sadiq idi. Azərbaycan Respublikasında da demokratik qüvvələr "hərbi xuntanın" - Dövlət Fövqəladə Vəziyyət Komitəsinin qanunazidd fəaliyyətinə qarşı çıxdılar. Lakin respublikanın prezidenti A.Mütəllibov avqustun 21-də Azərbaycan televiziyası ilə bəyanat verib, respublikanın qarşısında duran mürəkkəb məsələlərin həllində ümidini bu komitəyə bağladığını bildirmişdi. Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko da çevrilişi razılıqla qarşıladığını elan etmişdi. Sov. İKP-dən, "QKÇP"-dən gələn bütün göstərişlər yerinə yetirilirdi. Demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində SSRİ-də dövlət çevrilişinin qarşısı alındı. Azərbaycanda da irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə, mitinqlər başlandı. Avqustun 22-də fövqəladə vəziyyətin hökm sürdüyü Bakının Nizami meydanında izdihamlı mitinq oldu. Burada respublika rəhbərliyinin dövlət çevrilişinə müsbət münasibəti pislənildi. [6, s.232]

Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı.

Bu tarixi sənədin mühüm məqamlarından biri odur ki, “Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək, 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək” [1] dövlət müstəqilliyinin bərpa olduğunu elan edir. Bərpa etmək ifadəsi Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varislik prinsipini vurğulamış oldu.

Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar da qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən qonşu Ermənistan və Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya qanun qəbul etdilər.

Müstəqillik haqqında bəyannamə ilə bağlı Azərbaycan Ali Sovetinin məlum sessiyasında Heydər Əliyevin taleyüklü məsələ ilə bağlı mühüm çıxışı oldu. Heydər Əliyev bu çıxışında hökumətin tələsik referenduma gedib, yeni ittifaq müqaviləsini imzalamağını sərt tənqid etdi. Nitqinin tez-tez kəsilməsinə baxmayaraq, Heydər Əliyev təkidlə fikirlərini bildirdi: müstəqillik haqqında bəyanatın qəbul edilib, xalqa müraciət etməklə qısa müddət ərzində referendum keçirilməsinin vacibliyini vurğuladı. O, deyirdi: “Biz artıq gecikmişik. Bu bəyanatın mətninə mütləq əlavə olunmalıdır ki, 1920-ci il aprelin 28-də Azərbaycan işğal olunub. Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və tam qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub.” [9,s.185]

Bəyanatın mətnində birbaşa 28 aprel işğalı vurğulanmasa da “1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğu” qeyd edildi.

Bakıda Ali Sovetin oktyabrın 8-də işə başlayan növbədənkənar sessiyanın gündəliyinə dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulu məsələsi salınsa da, müzakirələr nəticəsində parlament bu məsələni sonraya saxladı.

Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsvermədə Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermədə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

Konstitusiya Aktının preambulasında 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanın Rusiya tərəfindən ilhaq edildiyi, 70 il ərzində sovet rejimi tərəfindən Azərbaycan Respublikasına qarşı müstəmləkəçilik siyasətinin yeridildiyi vurğulanırdı. Konstitusiya Aktının Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslandığı qeyd edilirdi. Konstitusiya Aktı 6 fəsil, 32 maddədən ibarətdir. Həmin maddələrə əsasən, Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisi hesab olunurdu. Lakin Azərbaycan SSR haqqında isə heç nə deyilmir, Azərbaycanın 71 illik tarixi hüquqi müstəvidə təsbit olunmurdu. Məhz ermənilər Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsubluğunu şübhə altına qoymaq üçün məhz bu məqamdan özlərinə uyğun şəkildə bəhrələnərək davamlı olaraq möhtəkirlik edirlər. Çünki Dağlıq Qarabağı Azərbaycan Respublikasının muxtar inzibati ərazisi kimi birmənalı təsbit edən və beynəlxalq hüquq baxımından mühüm fakt olan qərar 1923-cü ildə, yəni Azərbaycan SSR vaxtında qəbul edilib. Müstəsna önəmli olan isə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi idi.

Dekabrın 11-də müstəqilliyimizi tanıyan 2-ci ölkə isə Rumıniya oldu. Dekabrın 13-də Pakistan analoji bəyanat verdi. Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik faktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu.

Nəticə: Artıq 30 ildir ki, Azərbaycan Respublikası öz müqəddəratını özü müəyyən edir. XX əsrin ən böyük hərbi-siyasi problemi olan Qarabağ ərazisinin erməni separatçıları tərəfindən işğalı məsələsi 2020-ci ilin sonunda böyük zəfərlə həll edildi. 44 günlük müharibə ilə Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan qüvvələrini tarixi Azərbaycan torpaqlarından qovub beynəlxalq hüquq normaları çərçivəsində ədaləti bərpa etdi.

İlham Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ərzində ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olunub, xalq və dövlət üçün taleyüklü layihələr həyata keçirilib. Azərbaycanın iqtisadi və hərbi potensialı güclənib və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Azərbaycan Respublikası iqtisadi inkişaf sürətinə görə son illər Qafqazın lider dövlətinə çevrilib.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin bəyannaməsi / Bakı şəhəri, 30 avqust 1991-ci il.№ 179-XII - http://www.e-qanun.az/framework/6592
2. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitutsiya Aktı / Bakı şəhəri, 18 oktyabr 1991-ci il. № 222-XII - http://www.e-qanun.az/framework/6693
3. Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, №15-16, səh.10.
4. Azərbaycan Respublikası 1991-2001. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, 280 s., səh.59.
5. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 səh.-səh.206.